Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
12 noyabr / 2020

# Gözün aydın, Şəhidim!:

## Uğrunda canını fəda etdiyin Vətənin Qələbə sevincini yaşayır!

*(Şəhid gizir Emil Əhmədova həsr olunur)*

**Esse**

**"Şəhid gəlir!" Hər dəfə bu sözləri eşidəndə ölümün xofunu unuduruq. Hansısa bir məqamda ana ağılarına, laylalarına köklənib kövrəlsək də, bir an sonra köksümüz qabarır, qürur bürüyür daxilimizi: Şəhidimiz var!..**

Şəhid gizir Emil Əhmədovun cənazəsinin gətirilməsi xəbəri Xırdalana axşam yayıldı. Şəhərin rəsmi nümayəndələri ilə birgə eşidən-bilən vida mərasiminə toplandı.

Örtüyü üçrəngli bayrağımızdan olan şəhid tabutu nəhəng izdihamın müşayiəti ilə yola salındı. Tabut çiyinlərdə deyil, əl üstündə aparılırdı. Yoldan ötən hər kəs "Şəhid gəlir!" deyib ayaq saxlayırdı. Bu, teatral mənzərəyə tamaşa deyildi, Ali Varlığın bizə hədiyyə etdiyi Şərəf Lövhəsi idi! O lövhəyə Azərbaycan Respublikası Prezidentinin adından Müdafiə nazirinin 19 iyul 2008-ci il tarixli əmri ilə Silahlı Qüvvələrin 90 illiyi, 24 iyun 2013-cü il tarixli əmri ilə 95 illiyi, 26 iyun 2018-ci il tarixli qərarı ilə Azərbaycan Ordusunun 100 illiyi yubiley medalları həkk olunmuşdu. Bu tabloda səmavi mesajı olan bir təltif diqqətimizi cəlb etdi: 26 iyun 2016-cı ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı. Demə, Emil oğlumuz özünü Behişt gənclərinin başçısı Həzrəti Hüseyn Əleyhissəlamın müqəddəs dəstəsinə hazırlayırmış! Məqamın mübarək Emil oğlumuz! Ulu göylərdə pak mələklər Uca Dərgahı müjdələyirdilər: ŞƏHİD GƏLİR!!!

### Mən atamın vətənindəyəm!

Şəhidin anası Esmira Əhmədova: Həyat yoldaşım Bahadur Əhmədovla biz vətəndən kənarda yaşayırdıq. Bahadur Polşada hərbi xidmətdə ikən I Qarabağ Müharibəsi başlandı. Bahadur dedi: "Mən evə qayıtmalıyam!" İki övladımız vardı. Vətənə qayıtdıq. 1993-cü ildə Bahadur Zəngilan uğrunda gedən döyüşlərdə ağır yaralandı, sonra itkin düşdü. Onda Emilin 13 vardı. Uşaq hamının qabağında and içdi ki, atamın intiqamını alacağam. Orta məktəbi bitirdikdən sonra Emil başqa sənət sahəsində çalışsa da, sonra verdiyi vəd həyat yolunu dəyişdi. Altı ay hərbi təhsildən sonra üç il tank alayında xidmət etdi. Sonra gizir olmaq üçün təhsil aldı. Tankçı kimi xidmətə başlayan oğlum tank alayının komandiri oldu. Müdafiə Nazirinin iştirakı ilə keçirilən hərbi təlimlərdə yüksək nəticələr göstərdiyinə görə ona təşəkkür elan olundu və "Xəzər" TV-də göstərildi.

**Oğlumuz aprel (2016), iyul (2020) döyüşlərində fəal iştirak etmişdi. Sentyabrın 27-də əks-hücum əməliyyatı başlayanda Bakı qarnizonu cəbhəyə göndərildi, sözsüz ki, bizim Emilimiz də...**

***

Emil Əhmədov oktaybrın 31-də səhər 6.30-da zəng vurub anası Esmira xanımla danışır. Deyir: - Ana, məni təbrik elə, mən atamın vətənindəyəm. Yuxarı gedirik!

Bu, o demək idi ki, Zəngilan işğaldan azad edilib. Əhmədovlar ailəsi də zəngilanlıdır! Lakin elə həmin axşam, yəni oktyabrın 31-də axşam əvvəlcə şəhid olması haqqında məlumat, sonra isə cənazəsi gətirildi.

### Canımızı qurban verməyə hazırıq!

Şəhidin böyük əmisi Əhmədov Əli Qadir oğlu: - Emil İkinci Qarabağ müharibəsi başlayandan tank alayının komandiri kimi cəbhə bölgələrində - Zəngilanda, Cəbrayılda, Qubadlıda, Füzulidə əks-hücum mübarizəsində iştirak etdi. Çox mədəni oğlan idi. Hamıya çox xoş münasibət bəsləyirdi. 15 gün qabaq mənə bir şad xəbər verdi. Dedim ki, babanın evini tanıyırsansa, get, həyətimizdə bulaq var, onun suyundan iç... Nəslimizdə hərbçi çoxdur. Biz hamımız canımızı Vətənimizə, Ali Baş Komandanımıza qurban verməyə hazırıq.

### Belə sərkərdə olmayıb

Şəhidin yaxın qohumu Namiq Əliyev (təqaüddə olan polis polkovnik-leytenantı): - Oktyabrın 23-də ad günümdə Emil zəng vurub məni təbrik etdi.

- Emil, tezliklə qələbə çal, məhəlləmizə tankınla gəl, - dedim.

- Mənim tankım məhəlləyə sığmaz, - dedi.

- Hasarları söküb tankına yol açarıq.

Lakin tank deyil Milli Bayraq örtüklü tabutu gəldi. İzdahımın çoxluğundan əsl-həqiqətdə az qala hasarlar dağılacaqdı.

Gecə saat 2-də şəhidimiz qapımıza gəldi. Onu rəsmi dövlət təşkilatlarının nümayəndələri müşayiət edirdilər. Onlar gecə 4-ə qədər bizimlə bir yerdə oldular.





Gündüz 1-ə on beş dəqiqə işləmiş meyid namazı qılındı, sonra götürdük.

Rəhbərlik xiyabanda toplaşmışdı, çünki hərbçilərin Fəxri Xiyabanına Novxanıdan da bir şəhid gətirilirdi.

Tabut yarım kiometr məsafəyə qədər əl üstündə aparıldı. YPX-nin müşayiəti ilə Fəxri Xiyabana gəldik. Tabutu əsgərlər maşından düşürdülər. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Müdafiə Nazirliiyinin yüksək rütbəli zabirləri çıxış etdilər. Sonra tabutun üstündəki bayrağı bükdülər, icra başçısı şəhidin böyük oğlu, babasının adını daşıyan Bahadura verdi. Bahadur bayrağı öpüb qoydu gözləri üstünə. "Vətən sağ olsun!" - dedi. İradə xanım hörmətlə bildirdi ki, "biz sizi tək qoymayacağıq. Şəhidlər bizim şəhidlərdir".

Şəhidlər uğrunda canlarını fəda etdikləri torpağa əmanət verildi, onların ruhlarına ehtiramla yaylım atəşi açıldı.

Bu müharibə olmalı idi. Bizim millətə başıaşağı gəzmək yaraşmır. Müharibədə şəhid olmasa, qələbə də olmaz. Analarımız çox dəyanətlidirlər. Evindən iki şəhid yola salan analarımız var ki, başı dik gəzirlər. Bu qürur və fərəhin başında dayanmaqla başımızı uca edən Ali Baş Komandanımızdır. Hələ belə sərkərdə olmayıb! Allah onu bizə çox görməsin!

### Şəhid məclisində Nuru Paşa yad edildi

Sosial məsafə gözlənilməklə keçirilən Şəhid Emil Əhmədovun taziyə mərasimini Hacı Yunus Xudaverdiyev idarə edirdi. O, tarixi bir moizə etdi. Dedi ki, XX əsrin əvvəllərində babam Qobuda anbardar olub. Bir gün o, tarixi bir hadisəni danışdı:

- 1918-ci ildə bolşeviklərlə ermənilər birləşib Bakı əhalisini qırğına verən günlərdə gecənin sakitliyini atların ayaq səsləri pozmağa başladı. Kəndə vəlvələ düşdü. Xalq bu səsi düşmən atlarının ayaq səsi bildi, hər kəs evində gizləndi. Az sonra qapılar döyülməyə başladı. Eşiyə çıxanda məlum oldu ki, Nuru Paşanın rəhbərliyi ilə türk ordusu gəlib. Nuru paşa bildirdi ki, Bakıda camaatınızı qırırlar, biz də sizə köməyə gəlmişik. Gəlin, bizə qoşulun, birlikdə vuruşaq. Dedik, ay paşa, axı, ov tüfənginə qədər əlimizdən alıblar, yalın əl ilə necə vuruşaq? Dedi ki, silahın olması vacib deyil, yemək bişirərsiniz, silah daşıyarsınız, başqa köməkçi işlər görərsiniz, bu, bizim bəsimizdir. Bizi Qurd qapısı ilə üzbəüz dağın üstünə gətirdilər. Paşa binoklu mənə verib soruşdu ki, Qurd qapısı tərəfdən nə görürsən? Dedim ki, toplar bizə tərəf tuşlanıb. Dedi ki, yarım saatdan sonra onları görməyəcəksən. Qobidə kimin evində nə vardısa bişirib gətirdi. Ordu qidalandıqdan sonra komanda verildi. Ordu ayağa qalxdı. Bununla da Bakı qırğını yatırıldı. Halbuki ordu iki gün geciksəydi Bakıda insan qalmayacaqdı.

**Bunu danışmaqda məqsədim budur ki, türk qardaşlarımız bu gün də bizim yanımızdadırlar, bizə mənəvi dayaqdırlar. Bu gün güclü ordumuz var, kimsəyə ehtiyacımız yoxdur. Unutmayaq ki, bu hörməti prezidentimiz ağlı, mədəniyyəti ilə qazanıb. Türk qardaşlarımızın şəhidləri üçün rəhmət oxuyaq, qalanlarına cansağlığı diləyək. Allahtaala türk xalqlarının birliyini əbədi eləsin. Allah dünyamızı ayıltsın! Bizi anlamayan xalqlara ağıl, zəka versin ki, baş verənlərin həqiqətini anlasınlar. Haqq işində haqqın yanında olsunlar, Ali Baş Komandanımızın haqq çağırışını eşitsinlər.**

Görüşümüzün sonunda müsahibədə iştirak edən Şəhidimizin əzizlərinə sual verdik ki, bu gün Emil sizin üçün kimdir? Sualımız ehsan süfrəsinə göz yaşları səpələdi, amma hər kəs qürurla dedi:

Şəhid anası Esmira xanım: Emil mənim oğlum idi, indi xalqın oğludu. O, atasının simasında ataların, anasının simasında anaların intiqamını aldı. Ürəyimdə hər an onunla danışıram. Sevinirəm ki, vətənimiz uğrunda şəhidim var! Fəxr edirəm ki, şəhid xanımı, şəhid anasıyam!

Şəhid bacısı Elnarə xanım: Qardaşımla, məhz torpaqlarımız uğrunda şəhid olması ilə fəxr edirəm. O, hər an mənimlədir. Bəli, biz prezidentimizə heyranıq. Hər çıxışını səbirsizliklə gözləyirik. Yeganə prezidentdir ki, torpaqlarını bu cür mərdliklə alır.

Ana Esmira xanım: Allah qoysa hamısını alacaq.

Şəhidin xalası qızı Məryəmxanım Əliyeva: Deməyə söz çoxdur, demək olmur. Mən də xalam oğlu ilə fəxr edirəm! Biz gənclər gələcəkdə kimin haqqında nə danışacağımızı yaxşı bilirik.

**Şəhidin əmisi Əli müəllim, yaxın qohumları Namiq müəllim fikirlərini belə yekunlaşdırdılar: Ali baş Komandanımız əsl-həqiqətdə tarix içində yeni bir tarix yazır. Onun kimi sərkərdə olmayıb. Emil ABK-ımızın əmri ilə əks-hücum əməliyyatına getmiş bir əsgərdir. Şəhiddir. Bütün şəhidlər bizə Emil qədər əzizdilər. Şəhidi olmayan vətəndən Vətən olmaz!**

O vaxt küçələrdən, mağazalardan, məktəblərin qabağından yığıb əsgər aparırdılar. İndi isə yüksək təhsil və təlim görmüş güclü ordumuz var. Bu, rəhmətlik Ümummilli Lider Hydər Əliyevin, ağıllı davamçısı prezidentimiz cənab İlham Əliyevin bacarığı, uzaqgörənliyi sayəsindədir. O, bizi valeh edir.

### "Qarabağ - Azərbaycandır!"

Müdafiə Nazirliyinin zabitləri və əsgərləri, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Başçının Xırdalan Şəhər İnzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafiq Yusubov, Abşeron Rayon Polis İdarəsinin rəisi pols polkovniki Şəhriyar Şəmşirli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Abşeron rayon şöbəsinin rəisi polkovnik-leytenant Hüseyn Quliyev, Səfərbərlik Hazırlıq və Səfərbərlik bölməsinin zabiti kapitan Murad Əhmədov, Yol Patrul Xidmətinin əməkdaşları! Əsgər-şəhid ailəsinə Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin necə həssaslıqla yanaşmasının Sizin simanızda da təcəssüm və təzahürünü görüb, bir vətəndaş kimi dəyərləndirdik. Sizə dərin təşəkkürümüzü bildiririk. İradə xanımın söylədiyi kimi, Şəhid təkcə Əhmədovlar ailəsinin deyil, bizimdir - bütün Azərbaycanındır. Qarabağ - Azərbaycandır!

### Şəhidlərə öldü deməyin!

Bütün deyilənlərin sonunda lirik ovqat yarandı. Haqlı idilər: axı, Müqəddəs Kitabımızda da Buyurulur ki, şəhidlərə öldü deməyin, onlar Allah Dərgahında sağdırlar!

Bu səbəbdən hər an yolunuzu gözləyirik. Elə bilirik, işə getmisiniz, axşam evə qayıdacaqsınız. Ölümünüzü hiss etmirik. Axı, Siz hər an bizimləsiniz! Şəhidlərimizin mübarək cərgəsinə yeni qoşulan Emil oğlumuz, sən də hər an bizimləsən!

**Hər Günəş doğanda yenidən doğulursunuz Vətənimizdə. Səma buludları gülaba çevrilib yağır üstünüzə. Yenidən cücərib boy atırsınız Vətən torpağında. Axı, siz torpaq oğlusunuz. Siz ona qurban oldunuz. Laylanızı səma mələkləri çalır... Fəthiniz mübarək! Məqamınız mübarək! İlham ətirli qələbəmiz mübarək!**

**Rafiq RƏHİMLİ,**
**yazıçı-dramaturq,**
**Əməkdar mədəniyyət işçisi**